http://www.amu.edu.az

# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 04 (1644) 28 fevral 2017 - ci il Qiyməti 50 qəpik

## Xocalı soyqırımının 25-ci ildönümü ilə əlaqədar Bakıda ümumxalq yürüşü keçirilib

### Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva yürüşdə iştirak ediblər

XX əsrdə bəşər tarixinə Xocalı soyqırımı kimi daxil olan qanlı faciənin 25-ci ildönümü ilə əlaqədar fevralın 26-da Bakıda ümumxalq yürüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident xanım Mehriban Əliyeva yürüşdə iştirak ediblər.

Paytaxtın Azadlıq meydanından başlayan və 40 mindən çox insanın iştirak etdiyi ümumxalq yürüşünün məqsədi Xocalı soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad etmək, erməni faşistləri tərəfindən insanlığa qarşı törədilmiş bu vəhşi cinayəti yenidən dünya ictimaiyyətinin diqqətinə çatdırmaqdır.

Ön sırasında Prezident İlham Əliyevin və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın olduqları yürüş iştirakçıları Xocalı soyqırımı qurbanlarının xatirəsinə Bakının Xətai rayonunda ucaldılmış abidəyə doğru hərəkətə başladılar.

Ümumxalq yürüşünün iştirakçıları əllərində qanlı qırğının günahsız qurbanlarının – xüsusi qəddarlıqla qətlə yetirilmiş uşaqların, qadınların və qocaların portretləri, 25 il bundan əvvəl törədilmiş hadisələrin dəhşətli səhnələrini əks etdirən fotoşəkillər, faciənin təqsirkarlarından cavab tələb etmək, onları cəzalandırmaq, bu soyqırımına beynəlxalq səviyyədə siyasi-hüquqi qiymət vermək barədə çağırışlar və soyqırımı qurbanlarının adları, soyadlarının əks olunduğu Azərbaycan, rus, ingilis, fransız dillərində plakatlar və transparantlar tutmuşdular. Marşrut boyunca yolların kənarlarındakı monitorlarda, binaların fasadlarında və balkonlarında “Dünya Xocalı soyqırımını tanımalıdır!”, “Xocalıya ədalət!”, “Xocalını unutmayın!”, “Rədd olsun erməni faşizmi!”, “Xocalı – XX əsrin soyqırımı”, “Cinayətkarlar cəzasız qalmayacaqlar!”, “Xocalı soyqırımı – 25 il” və s. çağırışlar və şüarlar nümayiş etdirilirdi.

Xocalı soyqırımı qurbanlarının abidəsinin ətrafında fəxri qarovul dəstəsi və tər çiçəklər düzülmüşdü.



Prezident İlham Əliyev Xocalı soyqırımı abidəsinin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsini ehtiramla yad etdi.

Birinci vitse-prezident xanım Mehriban Əliyeva, Baş nazir Artur Rasi-zadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Arzu Əliyeva, Heydər Əliyev abidənin önünə tər güllər qoydular.Dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkətlərin rəhbərləri, diplomatik korpusun nümayəndələri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri də abidənin önünə güllər düzdülər.

## BU SAYIMIZDA



İmtahan sessiyasının yekunları müzakirə olundu 2



Xocalı Soyqırımının 25 illiyinə həsr olunmuş tədbir 3

Yeni doktorant və dissertantlarla görüş 4

Azərbaycan Tibb Universiteti ilə Türkiyənin Medicabil xəstəxanası arasında memorandum imzalanıb 6



Rektor xaricdə təhsil alan həkimlərə müraciət etdi 4



Tibb Universitetində YAP-ın hesabat-seçki yığıncağı 5

ATU-nun Həmkarlar İttifaqı Komitəsi (HİK) Tədris Stomatoloji Klinikada növbəti yığıncağını keçirib 6



“Kök hüceyrələrinin müasir kliniki tətbiq sahəsi” mövzusunda konfrans 4



Türkiyəli professorlarla orqan köçürülməsi mövzusunda müzakirələr aparıldı 6

**BÖYÜK ELMİ ŞURADA**

# İmtahan sessiyasının yekunları müzakirə olundu



**Fevralın 27-də Böyük Elmi Şuranın növbəti iclası keçirildi. İclasa sədrlik edən ATU- nun rektoru, professor Gəray Gəraybəyli gündəliyə keçməzdən öncə ölkə prezidenti cənab İlham Əliyevin fevralın 21-də Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi haqqında imzaladığı sərəncamı diqqətə çatdırdı və bu münasibətlə universitet ictimaiyyətinin adından Mehriban xanım Əliyevaya təbrik məktubu ünvanlandığını bildirdi. Rektor qeyd etdi ki, Mehriban xanım Əliyevanın bu mühüm vəzifəyə təyin olunması xalqımızın və dövlətimizin daha da inkişafı naminə, respblikamızın istər daxili və xarici siyasətində, istərsə də mədəni-ictimai və sosial həyatında daha böyük əzmkarlıqla fəaliyyət göstərməsinə şərait yaradır. Onun səhiyyə sahəsinə göstərdiyi diqqət və qayğıdan bəhs edən rektor dedi ki, tibb ictimaiyyəti bu təyinatı daha böyük sevinclə qarşılayır və Mehriban xanım Əliyevaya gələcək işlərində uğurlar arzulayır.**

**Sonra ATU-nun tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev "2016- 2017-ci tədris ilinin payız semestrinin imtahan sessiyasının yekunları və yaz semestrində tədris prosesinin daha da yaxşılaşdırılması işində universitet kollektivinin vəzifələri" barədə hesabatı dinlənildi.**

Azərbaycan Prezidentinin 14 iyun 2016-cı il tarixli sərəncamı ilə "Elm haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edildiyini önə çəkən məruzəçi ölkədə elmin inkişafının hüquqi əsaslarını müəyyən edən bu qanunun elmin maliyyələşdirilməsi mexanizmlərini, əldə edilən nailiyyətlərin stimullaşdırılması və onlardan istifadənin təşkilati-hüquqi əsaslarını müəyyən etdiyini söylədi.

Sözünə davam edən S.Əliyev bildirdi ki, cari tədris ilinin payız semestrinin imtahan sessiyasının obyektivlik, aşkarlıq və şəffaf şəkildə keçirilməsi ilə bağlı ənənəvi olaraq professor-müəllim heyəti ilə tələbələrin birgə yığıncaqları keçirilmiş və bu yığıncaqlarda qarşıda duran və həlli vacib bütün məsələlər operativ qaydada həll edilmişdir. Kafedralarda ayrı-ayrı fənlərdən test bankının yaradılması istiqamətində də xeyli iş görülmüşdür. Universitetin metodik və innovasiya şöbəsi tərəfindən test tərtibinə cəlb olunan professor-müəllim heyəti ilə seminarlar keçirilmiş, tərtib olunmuş testlərin texniki, metodiki ekspertizası aparılmış, fənlər üzrə ekspertlər müəyyən edilmiş və onların iştirakı ilə suallar sonuncu dəfə yoxlanılaraq test bankına yerləşdirilmişdir: "Cari tədris ilindən başlayaraq I kursa qəbul olunmuş tələbələrin kompyuterlə test üsulu ilə imtahanların aparılması məsələsinə hörmətli rektorumuz professor G.Gəraybəylinin təşəbbüsü ilə yenidən baxılmış, bu sahə ilə məşğul olan aparıcı mütəxəssislərlə məsləhətləşmələr nəticəsində imtahanlar digər kurslardakı qaydalardan fərqli olmuşdur. I kurs tələbələri yeni "MOODLE" proqramı vasitəsilə imtahan vermişlər. Bu proqram hazırda dünyanın 200-dən çox unversitetində istifadə olunur və tələbələrin biliyininin daha obyektiv qiymətləndirilməsində geniş imkanlar yaradır. Digər kurslardan fərqli olaraq I kurs tələbələrinin biliyi bir saat vaxt ərzində 25 sualla yoxlanmışdır. Hər bir doğru cavab 2 balla qiymətləndirilir.

İmtahan sessiyasının nəticələrini diqqətə çatdıran prorektor bildirdi ki, klassik qaydada imtahan verən hərbi tibb məktəbinin tələbələri 132 halda imtahanda iştirak etmiş, 4-3% halda imtahana gəlməmişdir: "Klassik qaydada aparılan imtahanın nəticələrinə görə 32 (24,2%) halda «əla», 72 (54,5%)-yaxşı, 21 (15,9%) halda «kafi», 3 (2,2%) halda «qeyri-kafi» qeyd edilmişdir.

Kredit sistemi ilə təhsil alan tələbələr 43353 (keçən il 44036) halda imtahanda iştirak etmişdir.

Lakin sessiya müddətində imtahan verməli olan 6201 tələbədən yalnız 4855 nəfəri imtahanda iştirak etmişdir. 1346 nəfər bu və ya digər səbəbdən payız semestrinin imtahan sessiyasında iştirak etməmişdir ki, bu da tələbələrin 21,7%-dən çoxunu təşkil edir.

İmtahan sessiyasını 4475 nəfər tələbə müvəffəqiyyətlə başa vurmuşdur. Onlardan 900 nəfər (18,5%) sessiyanı «əla» qiymətlərlə, 1864 nəfər (38,4%) «əla» və «yaxşı» qiymətlərlə, 1711 nəfər (35,2%) qarışıq qiymətlərlə bitiriblər. Sessiyanın nəticələrinə görə 380 nəfər (7,8%) tələbənin akademik borcu qalıb. Onlardan 282 nəfərin yalnız 1 fəndən, 51 nəfərin 2 fəndən, 47 nəfərin 3 fəndən akademik borcu qalmışdır.



Universitet üzrə mütləq mənimsəmə göstəricisi 92,1% (keçən il 94,4%), keyfiyyət göstəricisi 56,9% (keçən il 59,7) olub.

Payız semestrinin imtahan sessiyasının nəticələrinə görə universitet üzrə əlaçılar 18,5% (keçən ilin müvafiq dövründə 17%), akademik borcu qalanlar isə 7,8% (5,5%) olmuşdur.

Kredit sistemi ilə 135 fənn üzrə imtahan verilmişdir ki, onların 78-də «qeyri-kafi» qiymət qeyd olunmamışdır. Universitet üzrə 202 tələbə appelyasiyaya ərizə ilə müraciət etmişdir. Onlardan 178 şikayət əsaslı, qalanları isə əsassız olmuşdur.

Payız semestrinin imtahan sessiyasının nəticələrini ilkin araşdırdıqda tələbələrin gündəlik fəaliyyətindən əldə etdiyi bal və test üsulu ilə aparılan imtahanların birgə nəticəsinə əsasən kəmiyyət və keyfiyyət göstəriciləri cüzi miqdarda aşağı olsa da, 92,1% və 56,9% (keçən il 94,4% və 59,7%), «əla» qiymətlər xeyli yüksək - 18,5% (keçən il 17%) olmuşdur."

İmtahan sessiyasının nəticələrinə əsaslanan S.Əliyev çıxışının sonunda qeyd etdi ki, dekanlıq və kafedraların bu sahədə görəcəyi işlər çoxdur və universitet kollektivi qarşıdakı semestrdə gənc nəslin tərbiyəsində və təhsilində əlindən gələni etməyə çalışacaqdır.

Məruzə ətrafında çıxış edən professorlar Arif Əfəndiyev, Əlihüseyin Hidayətov, Canbaxış Nəcəfov və Musa Qəniyev qarşıda duran problemlərin həlli yollarından söhbət açdılar, çalışdıqları kafedralarda bu istiqamətdə aparılan işlərin kəmiyyət və keyfiyyət göstəriciləri haqqında ümumi məlumat verdilər. Natiqlər test sisteminin gələcəkdə daha da təkmilləşdirilməsi məqsədilə daha səylə çalışacaqlarını dilə gətirdilər. Çıxışlarda vurğulandı ki, mövcud çatışmazlıqların aradan qaldırılması üçün tədrisə nəzarət gücləndirilməlidir. Onlar gələcəkdə daha yüksək nəticələrə nail olmaq üçün bir sıra təklif və rəylərini də irəli sürdülər.

Müzakirələrə yekun vuran G.Gəraybəyli məruzəni zəngin və əhatəli hesab edərək müsbət qiymətləndirdi. Qeyd etdi ki, bir iclasda bütün bu məsələləri həll etmək mümkün deyil və burada qaldırılan məsələləri gündəlik işimizlə həyata keçirməliyik. Bu il ilk dəfə I kursda aparılan imtahanların digər kurslardkı qaydalardan fərqli olduğunu bir daha diqqətə çatdıran rektor dedi ki, gələcəkdə bu sistemin daha da təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilməlidir. O, vurğuladı ki, bu sistemin dəyişməsində əsas məqsəd mövcud problemlərdən uzaqlaşmaqdır: "Sistemin incəlikləri barədə Sabir müəllim ətraflı məlumat verdi. Onu qeyd edim ki, bunu hazırlayıb həyata keçirən ekspertlər Tibb Universitetinə aid olmayan mütəxəssislərdir. İmtahan testlərini də əməkdaşlarımız hazırlamır, yalnız proqramlar kafedralardan götürülür. Kafedralarda gündəlik qiymətləndirmə işi də problemsiz deyil. Avropada qiymətləndirmə məsələsi kafedralarda həll olunmur. Kafedra yalnız tədrislə məşğul olur, tələbəni öyrədir. Bu biliyi yoxlamaq isə başqa bir qurumun işidir. Mən hesab edirəm ki, artıq bu istiqamətdə işlər başlanılıb və biz də bu yolla getməliyik. İmtahanda iştirak etmək məsələsi böyük problemlərdən biridir. Bununla bağlı Rektorluq Şurası ciddi məşğuldur. Xəstəlik haqqında tələbə poliklinikasından verilən saxta sənədlərin sayı azalıb. Xarici tələbələrə diqqət və qayğı daha da artırılmalıdır. Çünki onlarda haqqımızda mənfi rəyi formalaşdırmaq lazım deyil.

Biz öncədən bilməliyik ki, VI kursa buraxılan tələbələr nə istəyir. Əvvəlki sistem ilə bu günkü sistem arasında çox böyük fərq var. Əvvəlki sistemdə VI kursda oxuyan tələbələr hər bir ixtisasdan 1 il internatura keçib, həkim olurdu. İndi isə rezidentura sistemidir. Rezidentura həkimin sırf ixtisas almasına imkan yaradan sistemdir. Sadəcə olaraq rezidentura sistemi hələ də təkmilləşdirilməlidir. Ona görə biz öz proqramlarımıza yeni baxışla yanaşmalayıq.

Artıq VI kurs tələbəsindən həkimdən tələb etdiyimizi tələb etməməliyik. Çünki rezidentura müddətində onun patalogiyanı dərindən öyrənmək imkanları olacaq. Burada fikirlər səsləndi ki, 1100 testi əzbərləmək çətindir. Niyə proses zamanı tələbələr bu testlərin böyük hissəsini həll edə bilmirlər. Tələbələr kütləvi şəkildə imtahanlara girmirlər. Maraqlıdır, 5-6 gün onlara nə verir?

Ya bu dövrdə onlar testləri əldə edirlər, ya da nədənsə istifadə edib imtahanlara girmirlər.

İmtahanda iştirak vacib məsələdir.

Bunun hüquqi və maliyyə tərəfi var. Yenə deyirəm o insanlara saatlar verilir. Hesab edirəm ki, biz gələcəkdə bu məsələ ilə məşğul olub maliyyə itkisinin qarşısını ala biləcəyik.

Sonra universitetimizin əməkdaşları, AMEA-nın müxbir üzvləri, professorlar Sudeyif İmamverdiyev və Nuru Bayramovun AMEA-nın həqiqi üzvlüyünə, professor Əlişir Musayevin isə AMEA-nın müxbir üzvlüyünə namizədliklərini dəstəkləyən elmi şura ümumi cərrahiyyə kafedrasının professoru Çərkəz Cəfərovu həmin kafedraya məsləhətçi-professor seçdi.

Müxtəlif məsələləri nəzərə çatdırmaqla çıxışını davam edən universitetin rəhbəri yeni yaranan şöbə haqqında məlumat verərək bildirdi ki, təhsilin keyfiyyəti dövlətin bu günkü tələblərinə uyğun yaradıcı düşüncəyə malik, tibbin ayrı-ayrı sahələri üzrə inkişafını planlaşdıra, onu reallaşdıra və inkişaf etdirə bilən, gələcəkdə yüksək ixtisaslı mütəxəssis kimi fəaliyyət göstərə biləcək həkim və əczaçı kadrların səmərəli hazırlanma sisteminin yaradılması və təşkilindən ibarətdir. Bunun üçün də "tədris-metodik və innovasiya şöbəsi" adının "təhsilin keyfiyyətinin təminatı və innovasiya şöbəsi" kimi adlandırılması günün tələbidir.

Sonra adı çəkilən şöbənin müdiri, professor Akif Qurbanov təhsilin keyfiyyətinin təminatı haqqında hazırlanmış 7 bənddən ibarət bəyannaməni şura üzvlərinin nəzərinə çatdırdı və bəyannamə yekdilliklə qəbul olundu.

Sonda ATU-nun yeni gerbini və loqosunu təsdiqləyən elmi şura müsabiqə məsələlərini həll etməklə öz işini başa çatdırdı.

**Mənsur ƏLƏKBƏRLİ**
**Fotolar Cənnətalı Çingizindir**

# Xocalı Soyqırımının 25 illiyinə həsr olunmuş tədbir

**"İnsanlığa sığmayan vəhşilik, qəddarlıq rəmzi, bəşəriyyəti silkələyən cinayət"- Azərbaycan Tibb Universitetində Xocalı soyqırımının 25 illiyinə həsr olunmuş toplantıda həmin gecə baş verənlər məhz bu cür qiymətləndirildi.**



ATU-nun rektoru, professor Gəray Gəraybəyli Xocalı faciəsi haqqında qısa tarixi arayış səsləndirdi. Qeyd etdi ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərində soyqırım törədilib. 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri qoca olmaqla, 613 nəfər şəhid olub, 8 ailə tamamilə məhv edilib: "25 uşaq hər iki valideynini, 130 nəfər valideyinlərindən birini itirib. Bu, ermənilərin həyata keçirdiyi yeganə cinayət deyil. Tarix boyunca ermənilərin "böyük Ermənistan" xülyası ucbatından azərbaycanlılara qarşı müxtəlif vaxtlarda soyqırım siyasəti reallaşdırılıb. Bu qeyri-insani siyasət nəticəsində həmvətənlilərimiz öz yaşadıqları yerlərdən didərgin salınaraq çox pis vəziyyətlərə düşüblər".

Xocalı soyqırımına ilk dəfə hüquqi qiymətin ümummilli lider Heydər Əliyev tərəfindən verildiyini xatırladan G.Gəraybəyli son illər "Xocalıya ədalət" kampaniyası çərçivəsində bu hadisənin tanınması istiqamətində güclü işlər görüldüyünü bildirdi: "Bu kampaniya sayəsində ermənilərin vəhşiliyi barəsində dünyanın bir çox ölkələrində məlumatlar var. Bir çox ölkələrin parlamentləri Xocalı soyqırmını tanıyan qətnamələr qəbul ediblər. Soyqırımının ildönümü Azərbaycanla yanaşı, xarici ölkələrdə də qeyd edilir".

Rektor G.Gəraybəyli yaxın illədə Azərbaycanın öz torpaqlarını geri qaytaracağını və bundan sonra yalnız zəfərləri qeyd edəcəyimizdən əminliyini bildirdi.

İnsan anatomiyası kafedrasının professoru, Xocalı sakini Mübariz Allahverdiyev soyqırım zamanı valideynlərinin hər ikisini itirənlərin indi əvvəlki illərdən daha çox fərqli dünyagörüşünə malik olduqlarını bildirdi: "Bu 25 nəfər həmin vaxt körpə idilər. Hazırda bu uşaqlar təkcə fiziki cəhətdən deyil, idrak cəhətdən də böyüyüb, kamilləşiblər. Onlar özlərini – "25-lər" adlandırırlar və ermənilərə qarşı aparılan ideoloji mübarizədə fəallıq göstərirlər ki, bu da, mənim zənnimcə, çox nikbin əlamətlərin nəticəsidir. "25-lər"in mübariz çıxışlarını, Vətənə ürəkdən, candan bağlı olduqlarını görəndə xeyli təsəlli tapmaq olur".



M.Allahverdiyev Xocalı sakinləri arasında gələcəyə ümid və inam bəsləyən belə bir gəncliyin yetişməsindən qürur duyduğunu bildirdi.

Daha sonra Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov və II müalicə-profilaktika fakültəsinin V kurs tələbəsi, Prezident təqaüdçüsü Xatın Məmmədova Xocalı faciəsi ilə bağlı fikirlərini açıqladılar, ermənilərin işğalçılıq siyasəti və vəhşi əməlləri barədə həqiqətlərin dünyaya çatdırılması naminə gənclərin görə biləcəyi işlərlə bağlı təkliflərini səsləndirdilər.

**ATU-nun mətbuat xidməti**

# ATU-nun xarici tələbələri "Xocalıya ədalət" rubrikası üçün video çarxın çəkilişlərində iştirak ediblər

**Azərbaycan Tibb Universitetində təhsil alan əcnəbi tələbələr Azvision.az saytının hazırladığı "Xocalıya ədalət" rubrikası üçün video çarxın çəkilişlərində iştirak ediblər. Burada xarici tələbələrin hər biri öz dilində Xocalıya ədalət tələb etməklə, Azərbaycan xalqının üzləşdiyi bu dəhşətli cinayətin dünyada tanınmasına öz töhfələrini veriblər.**




Xocalı faciəsinin baş verməsindən 25 il ötür. Ermənilərin Xocalıda törətdiyi soyqırım nəticəsində 613 azərbaycanlı milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirilib. Xocalıda 487 nəfər şikəst edilib, 1275 nəfər girov götürülərək amansız işgəncələrə məruz qalıb. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi bu günədək məlum deyil. Xocalı soyqırımı zamanı 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirib. Əsrin faciəsindən 25 il keçsə də, Xocalı dəhşətləri unudulmur. Artıq dünyanın bir çox dövlətləri soyqırımı tanıyaraq "Xocalıya ədalət" istəyir.

# Azərbaycanda təhsil alan iranlı tələbələrin Elmi-mədəni və İdman Birliyinin bəyanatı

**Biz-Azərbaycanda təhsil alan iranlı tələbələrin Elmi-mədəni və İdman Birliyinin təmsilçiləri XX əsrin faciəsi olan Xocalı soyqırımının 25-ci ildönümü ilə əlaqədar olaraq bildiririk ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq və soyqırımı siyasətinin tərkib hissəsi olan, beynəlxalq hüququn norma və prinsiplərinin, insan hüquq və azadlıqlarının kütləvi şəkildə, kobudcasına pozulması ilə nəticələnən Xocalı soyqırımı erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı uzun müddət davam edən etnik təmizləmə və soyqırımı siyasətinin daha bir dəhşətli nümunəsidir.**

Azərbaycan xalqı 200 il ərzində erməni millətçi-şovinistlərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı siyasətinə məruz qalmış, öz tarixi torpaqlarından qovulmuş, qaçqına, məcburi köçkünə çevrilmiş və bütün bunlar ermənilər tərəfindən kütləvi qırğınlarla müşayiət olunmuşdur.




Bütün beynəlxalq hüquq normalarına zidd olaraq Ermənistan dövləti Dağlıq Qarabağı özünə birləşdirmək istəyir, bu yolda bütün cinayət və vəhşiliyə belə hazır olduğunu açıq şəkildə nümayiş etdirir. Ötən əsrin sonunda baş vermiş bu faciə təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir.

Beynəlxalq hüquqa əsasən, genosid ən ağır cinayətlərdəndir, lakin təəssüflər olsun ki, Azərbaycanda dinc əhaliyə qarşı belə dəhşətli soyqırımı aktları həyata keçirilməsinə baxmayaraq, bu faktlar, o cümlədən Xocalı soyqırımı beynəlxalq aləmdə hələ də öz lazımi qiymətini almamışdır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev vaxtilə bu məsələyə öz münasibətini bildirərkən demişdir: "Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırım eyni zamanda bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir."

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan İranın ali dini lideri Ayətullah Xamneyi də öz siyasi mövqeyini açıqlayarkən bildirmişdir: "Bizim Qarabağ məsələsinə mövqeyimiz ilk gündən çox açıq və konkret olub. Qarabağ müsəlman torpaqlarıdır. Onun azadlığı uğrunda ölənlər şəhiddirlər. Qarabağı işğal etmiş separatçı rejimlə hər cür əlaqə qurmaq haramdır və qanunla qadağandır."

Artıq 25 ildir ki, dünya, o cümlədən də İran xalqı Xocalı faciəsini Azərbaycan xalqı ilə birgə qeyd edir, bu ağır və dəhşətli faciədə Azərbaycanla həmdərd olduğunu nümayiş etdirir. Biz iranlı tələbələrin Azərbaycandaki birliyinin təmsilçiləri də Xocalı faciəsinin xatirəsini dərin ehtiramla yad edir və bəşəriyyətə qarşı törədilən hər növ cinayəti pisləyirik.

**Allah bütün şəhidlərimizə rəhmət eləsin!**

Xocalıya ədalət

# Yeni doktorant və dissertantlarla görüş

**• Azərbaycan Tibb Universitetinin doktorantura və dissertantura şöbəsinə qəbul başa çatıb. Fevralın 22-də ATU-nun rektoru, professor Gəray Gəraybəyli doktorant və dissertant adını qazanan gənc alimlərlə görüşüb, onları təbrik edib.**





Rektor bildirib ki, Tibb Universitetində təhsilin hər pilləsində, o cümlədən doktorantura və dissertanturada bütün proseslər tamamilə şəffaf aparılır. Professor Gəray Gəraybəyli gənclərə elmi işlərlə bağlı mövzu seçimi, işlərin aparılması, elmi-tədqiqatlarda məsuliyyətli olmağı məsləhət görüb.

Görüş zamanı gənc alimlər təhsil və tədrisin təşkil ilə bağlı öz fikirlərini bildirib, təkliflərini səsləndiriblər. Rektor doktorant və dissertantlara gələcəkdə üzləşdikləri hər bir çətinliklə bağlı rəhbərliyə müraciət etməyi tövsiyə edib.

Qeyd edək ki, bu il Azərbaycan Tibb Universitetinin doktorantura və dissertantura şöbəsinə 30 nəfər qəbul olub. Onlardan 19-u dissertant, 11-i doktorantdır.

# Rektor xaricdə təhsil alan həkimlərə müraciət etdi

**• Azərbaycan Tibb Universitetinin professor-müəllim heyəti arasında xarici ölkələrdə təhsil almış gənc mütəxəssislərin sayı kifayət qədərdir. Fevralın 23-də universitetin rektoru, professor Gəray Gəraybəyli hazırda ATU-nun klinikalarında və müxtəlif kafedralarında çalışan belə həkimlərlə görüşüb.**







Rektor Tibb Universitetinin bu cür yetirmələri olduğuna görə fəxarət hissi keçirdiyini bildirib: "Hər biriniz öz sahənizdə tanınan insanlarsız. Dünyanın aparıcı ölkələrinin təhsil sistemi, oradakı klinikaların fəaliyyəti, universitet strukturu ilə tanışısınız. Çox istərdim ki, bu biliklərinizin bizim universitetin fəaliyyətinin daha da yaxşılaşması naminə tətbiq olunmasına yardım edəsiniz. Çünki müasir, yeniləşən Azərbaycanda universitetlər də yeniliklərə açıq olmalı, bir sıra dəyişikliklər etməlidirlər". G.Gəraybəyli Azərbaycan Tibb Universitetinin adının dünyanın qabaqcıl elmi müəssisələri ilə yanaşı çəkilməsi üçün istənilən təklif və müraciətlərə açıq olduqlarını bildirdi. Rektor xüsusilə rezidentlərə yardım üçün peşəkar kadrlara, gənc mütəxəssislərə ehtiyac olduğunu qeyd etdi.

Daha sonra professor G.Gəraybəyli ATU-da Türkiyənin tanınmış universitetləri ilə birgə icra olunacaq yeni layihə haqqında tədbir iştirakçılarına məlumat verdi. Həmçinin, ATU klinikalarındakı yeni avadanlıqlar, burada uğurla həyata keçirilən unikal əməliyyatlar, treninq mərkəzlərinin tələbələrin püxtələşməsinə göstərdiyi yardımın əhəmiyyətindən bəhs etdi. Görüşün davamında bu istiqamətdə atıla biləcək addımlarla əlaqədar müxtəlif fikirlər və təkliflər səsləndirildi.

# "Kök hüceyrələrinin müasir kliniki tətbiq sahəsi" mövzusunda konfrans

**◆ Fevralın 24-də Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Cərrahiyyə Klinikasında (TCK) "Kök hüceyrələrinin müasir kliniki tətbiq sahəsi" adlı konfrans keçirilib.**



Konfransı ATU-nun elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov açaraq bildirib ki, çatmayan və ya pozulmuş hüceyrələrin əvəz edilməsinə əsaslanan müasir hüceyrə terapiyası adlanan sahə son illər sürətlə inkişaf edir. Onun sözlərinə görə, bu gün bir çox irəliləyişlər əldə edilib və hüceyrə terapiyası sahəsi meydana gəlib: "Artıq bəzi sahələrdə hüceyrə terapiyasını standart olaraq tətbiq edirlər. Bunlara sümük-ilik transplantasiyalarını və s. aid etmək olar. Hazırda klinik və eksperimental tədqiqatlar aparmaq üçün dünyanın bir çox yerlərində müasir laboratoriyalar yaradılıb. Ölkəmizin bu sahədə təcrübəsi hələ böyük olmasa da, artıq bir neçə xəstəxanada, o cümlədən ATU-nun Tədris Cərrahiyyə Klinikasında kök hüceyrənin tədqiqinə başlanılıb".

Konfransda Yıldız Teknik Universitetinin biomühəndislik kafedrasının professoru, Adil Allahverdiyevin "Kök hüceyrə mühəndisliyi", Bağçılar Eğitim ve Araşdırma Hastenesinin professoru Mehmet Bozkurtun "Rekonstruktiv və plastik cərrahiyyə kök hüceyrələrinin tətbiqi", Kolan Hastanesinin dosenti Hilmi Karadenizin "Ortopediya və travmatologiya sahəsində mezenximal kök hüceyrə və PRP tətbiqi", Medilife Sağlıq Qrupunun professoru Güven Erdoğun "Kök hüceyrələrinin kardiovaskulyar tətbiqi", ATU-nun Tədris Cərrahiyyə Klinikasının transplantologiya şöbəsinin müdiri Ruslan Məmmədov və şöbənin rezidenti Mehriban Hüseynovanın "Qaraciyər sirrozları zamanı kök hüceyrə transplantasiyası", ATU-nun histologiya, embriologiya və sitologiya kafedrasının assistenti Orxan İsayevin "Xərçəng kök hüceyrələri", ATU-nun Tədris Cərrahiyyə Klinikasının ortepediya və travmatologiya şöbəsinin assistenti Cəfər Nəsirlinin "Trombositlərlə zəngin qan plazması PRP istifadə sahələri", doktor Vaqif Qələndərin "Plastik və rekonstruktiv cərrahiyyədə kök hüceyrələrinin tədbiqi", doktor Kamran Musayevin "Kardiologiyada kök hüceyrələrin tətbiqi" mövzularında mühazirələri dinlənildi.

Daha sonra sözügedən mövzuda müzakirələr və qarşılıqlı fikir mübadilələri aparıldı.

# Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin nümayəndə heyəti ilə görüş keçirildi

**Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Cərrahiyyə Klinikasında Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (JICA) nümayəndə heyəti ilə görüş keçirildi.**



Görüşü ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Nadir Zeynalov açaraq universitetin beynəlxalq qurumlarla əməkdaşlığı barədə məlumat verdi. Sonra elmi işlər üzrə prorektor, dosent Rauf Bəylərov ATU-da aparılan elmi tədqiqatlar barədə danışaraq bu işlərin bir qisminin beynəlxalq təşkilatların dəstəyi ilə həyata keçirildiyini vurğuladı.

Tədris Cərrahiyyə Klinikasının direktoru, professor Surxay Hadıyev Azərbaycan Tibb Universitetinin klinik bazaları haqda məlumat verərək, elmi işlərin müalicə və tədris işləri ilə paralel aparılmasına auditoriyanın diqqətini cəlb etdi, elmi araşdırmaların aparılması üçün lazımi şəraitin olmasını bildirdi.

II uşaq xəstəlikləri kafedrasının assistenti Sevinc Muxtarova JICA təşkilatının qrantı hesabına Yaponiyada 20 günlük treninq-seminarda iştirak etdiyini dedi və təəssüratlarını tədbir iştirakçıları ilə bölüşdü.

Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin Özbəkistanda yerləşən regional mərkəzinin müdiri Fuşimi Katsutoşi təşkilatın tarixi, Yaponiya hökumətinə aidiyyəti, qrant layihələrinin ayrılması prinsipi və müxtəlif dövlətlərin hökumətləri ilə əlaqələri barədə ətraflı məlumat verdi, bu qrant layihələrində Azərbaycanın da iştirak etdiyini bildirdi.

Tədbirin sonunda Dr. Sevinc Muxtarovanın layihəsi üçün nəzərdə tutulmuş avadanlıq – yenidoğulmuşlar üçün portativ RAD-5 puls-oksimetri və EMMA kapnoqrafı təqdim olundu.

Tədbirdə JICA təşkilatının Özbəkistan üzrə koordinatoru Farhod Kurbonov və Azərbaycan üzrə koordinatoru Nigar İsmayılova, həmçinin II uşaq xəstəlikləri kafedrasının və ATU-nun Cərrahi Klinikasının neonatal xidmətinin əməkdaşları iştirak ediblər.

**ATU-nun mətbuat xidməti**

# Tibb Universitetində YAP-ın hesabat-seçki yığıncağı

Fevralın 17-də Azərbaycan Tibb Universitetində Yeni Azərbaycan Partiyasının Nəsimi rayon təşkilatının ərazi dairəsi üzrə hesabat seçki yığıncağı keçirilib. Toplantının əvvəlində Azərbaycan uğrunda şəhid olanların xatirəsi 1 dəqiqəlik sükutla yad edilib.



Nəsimi rayon üzrə YAP təşkilatının ATU nəzdindəki ilk ərazi təşkilatının sədri, tədris və müalicə işləri üzrə prorektor Sabir Əliyev rəhbərlik etdiyi təşkilatın yekun hesabatını iştirakçıların nəzərinə çatdırıb. Tədbirdə ATU-dan 250 nəfərin iştirak etdiyini vurğulayan prorektor S.Əliyev müstəqil Azərbaycanın yaradıcısı ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında müasir Azərbaycan Respublikasının sabit inkişaf yoluna qədəm qoyduğunu xatırladıb: "Bu sabitlik indiyə qədər davam edir. İndi də ümummilli liderin davamçısı cənab İlham Əliyev bu yolu şərəflə davam etdirir. 2016-cı il Azərbaycan xalqı üçün bir sıra əlamətdar hadisələrlə zəngin olub. Dünyada iqtisadi böhranın müşahidə olunduğu bir vaxtda respublikamız qarşıya qoyulan hədəflərin əksəriyyətini reallaşdırıb".



S.Əliyev qeyd edib ki, YAP Nəsimi rayon təşkilatının ATU nümayəndəliyi xüsusi fəallığı ilə seçilir. ATU-nun YAP üzrə əməkdaşları bir çox toplantılarda iştirak edirlər. Ərazi üzrə partiya təşkilatımızın əməkdaşlarının sayı 1150-dən çoxdur. Bunlardan 406 nəfəri kişi, 557 nəfəri qadındır. Onlar arasında professorlar-96, əməkdar elm xadimləri-28, kafedra müdiri-55, dosent və baş müəllim-402, assistentlər isə-238 nəfərdir.

Hesabat xarakterli çıxışdan sonra ATU üzrə YAP-ın ilk ərazi təşkilatının sədr seçkiləri baş tutub. Nəticədə ATU-nun tədris və müalicə işləri üzrə prorektoru Sabir Əliyev qurumun sədri seçilib. ATU-nun patoloji fiziologiya kafedrasının dosenti Sərdar Əliyev və universitetin beynəlxalq əlaqələr üzrə prorektoru dosent Nadir Zeynalov isə sədrin müavinləri seçiliblər.

Tədbirdə ATU-nun bir sıra tələbələrinə YAP-ın üzvlük vəsiqəsi təqdim edilib.

YAP Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı çıxış edərək, qeyd edib ki, ümummilli lider Heydər Əliyevin şəxsi qətiyyəti və iradəsi hesabına yaradılan və bu gün bütün regionda lider partiya olan YAP-ın yaradılmasının 25 illiyi respublikamızda təntənəli şəkildə qeyd edilir: "Heydər Əliyev ideyalarına sadiq olan və bu ideyalar əsasında fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin sədrliyi ilə böyük inkişaf yolu keçərək milli-siyasi iradəni təmsil edən və xalqımızın mənafeyini ifadə edən avanqard siyasi qüvvəyə çevrilib. Bu gün də mövcud iqtidarın monolit birliyi nəticəsində ümummilli liderimizin qurub yaratdığı azad, müstəqil, demokratik Azərbaycan onun müəyyən etdiyi strateji xətlə inamla irəli gedir".

ATU-nun rektoru, professor Gəray Gəraybəyli çıxışında YAP-ın yaradılması və formalaşması dövrünə siyasi ekskurslar edildiyini bildirib. O, YAP-la bağlı ümummilli lider Heydər Əliyevin bir kəlamını xatırladıb: "Yeni Azərbaycan Partiyası bu günün və gələcəyin partiyasıdır". Bu gün Azərbaycanın inkişaf dərəcəsi həmin sözlərin nə qədər həqiqətə uyğun olduğunu bir daha sübut edir. Bu gün ölkədə çoxlu partiyalar var. Buna baxmayaraq, YAP-ın istər daxili, istərsə xarici siyasətini düzgün, peşəkar və düşünülmüş şəkildə aparması onu digərlərindən fərqləndirir". G.Gəraybəyli ATU tələbələrinin könüllü şəkildə YAP-a üzvlük üçün müraciət etdiklərinin sevindirici hal olduğunu qeyd edib.

Tədbirdə daha sonra ATU-nun İnsan anatomiyası kafedrasının müdiri, professor Vaqif Şadlinski, əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının müdiri Məhbubə Vəliyeva, ATU-nun tibbi-profilaktika fakültəsinin dekanı, dosent Aydın Məmmədov da çıxış edərək fikirlərini bildiriblər.

# IV İslam Həmrəylik Oyunları zamanı tibbi xidmətin təşkili məqsədilə 600 nəfərə qədər könüllü cəlb olunacaq

**Mayın 12-dən 22-dək ölkəmizdə keçiriləcək IV İslam Həmrəylik Oyunları zamanı tibbi xidmətin təşkili məqsədilə 600 nəfərə qədər könüllü cəlb olunacaq.**



İslam Oyunları Təşkilat Komitəsinin Baş tibbi məsləhətçisi Samir Zeynalovun sözlərinə görə, bütün könüllülər fevral-mart ayları ərzində müxtəlif yönümlü tibbi təlimlərə cəlb olunacaqlar. Fevral ayının 6-dan bu günə qədər artıq 360 nəfər tibbi yardım könüllüsü Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Cərrahiyyə Korpusunda oyunlar zamanı ilkin tibbi yardımın strukturu, təşkili, İlk Tibbi Yardım və Həyatın Vacib Saxlanması (BLS- Basic Life Support) təlimlərinə cəlb olunaraq nəzəri olaraq məlumatlandırılıb və praktiki vərdişlərə yiyələniblər.

S.Zeynalov bildirib ki, təlimlər zamanı ən müasir təlim və tədris avadanlıqlarından istifadə olunub: "Biz, yaxın vaxtlarda Azərbaycan Tibb Universitetinin 200 nəfərə qədər IV və V kurs tələbələrini də bu təlimlərə cəlb etməklə, İlk Tibbi Yardım və Həyatın Vacib Saxlanması vərdişlərinin onlar tərəfindən mənimsənilməsinə və könüllü olaraq oyunlar zamanı bizə dəstək olmalarına nail olmaq fikrindəyik. Artıq bu sahədə ilk Avropa oyunlarından müsbət təcrübə var və bu özünü doğruldub. Bu təlimlərin həyata keçirilməsində bizə lazımi dəstəyi və hərtərəfli köməyi əsirgəməyən ATU-nun Tədris Cərrahiyyə Klinikasının direktoru, professor Surxay Hadıyevə minnətdarlığımızı bildirir, əməkdaşlığımızın gələcəkdə daha sıx olacağına və ümumilikdə, ölkəmizə daha çox fayda verəcəyinə əminliyimizi bildiririk".



# İsveçin məşhur "Storz Medical Duolıth SD1" aparatı artıq ATU-da

Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Cərrahiyyə Klinikasında İsveçin "KARL STORZ" firmasının dünyaca məşhur aparatının təqdimatı keçirilib.



Dünyanın 168 ölkəsində tətbiq edilən "Storz Medical Duolıth SD1" aparatı bu gün klinika işçilərinə təqdim olunub.

Urologiya sahəsində geniş tətbiq edilən bu aparat, artıq tibbin bir cox sahələrində istifadə olunur. Bu sahələrə travmatologiya, kardiologiya, revmatologiya, nevrologiya, estetik tibb və s. daxildir.

# Orqan transplantasiyasına həsr olunmuş beynəlxalq seminar

- **Fevralın 16-da Tədris Cərrahiyyə Klinikasında 3-cü orqan transplantasiyası günlərinə start verilib.**



Tədbirdə açılış nitqi ilə çıxış edən akademik Nuru Bayramov bu tip konfransların önəmindən bəhs etdi: "Biz burada biliklərimizi qarşılıqlı bölüşüb, nələrsə öyrənirik. Gələcək nəsil üçün də bu olduqca vacibdir. Elmi araşdırmalar zamanı yazılan, işlənən hər iş çox incəliklə edilməlidir".

Daha Sonra tədbir seminar şəklində öz işini davam etdirdi. Malatya İnönü Universiteti Turqut Özal Tibb Mərkəzinin professoru Cüneyt Kayaalp "Elmi araşdırmalar" mövzusunda məruzə etdi. O bildirdi ki, insanın gücü elmdədir: "Nə qədər çox bilsən o qədər də güclü olarsan".

Professor C.Kayaalp məqalə yazmaq, araşdırmalar aparmaqla bağlı da təcrübəsini bölüşdü.

**ATU-nun mətbuat xidməti**

# ATU-nun Həmkarlar İttifaqı Komitəsi (HİK) Tədris Stomatoloji Klinikada növbəti yığıncağını keçirib

- **Azərbaycan Tibb Universitetinin Tədris Stomatoloji Klinikasında universitetin Həmkarlar İttifaqı Komitəsinin yığıncağı keçirilib.**



Yığıncağı HİK-nin sədri, dosent Cahangir Qasımov açaraq gündəlikdə duran məsələləri diqqətə çatdırıb.

Tibbi-profilaktika fakültəsinin həmkarlar təşkilatının sədri, dosent Sahib Əhmədov "Terapevtik stomatologiya, örtopedik stomatologiya, uşaq stomatologiyası kafedralarında, həmçinin müalicə-profilaktika və digər fakültələrin tələbələri üçün stomatologiya kafedrasında əməkdaşların əmək və nizam-intizamının pozulması haqqında" tərtib edilən arayışla bağlı ətraflı məlumat verib. Bildirib ki, ATU-nun kafedralarında əməkdaşların işə davamiyyətinin yoxlanılması haqqında tərtib edilmiş arayışlar və işdə olmayanların izahatları komissiya tərəfindən araşdırılıb. O, yoxlamanın nəticələrini, konkret olaraq əmək intizamını pozan əməkdaşların siyahısını, hər əməkdaşın ayrı-ayrılıqda izahatını açıqlayıb.





Araşdırma zamanı məlum olub ki, 15 nəfər Əmək Məcəlləsinin tələblərini pozub. Nəticədə işəgecikmələr və işburaxma hallarının olması meydana çıxıb. Bunlardan 6 nəfərinin isə bir neçə gün işə gəlməməsi bəlli olub. Bəzi əməkdaşlar isə səhər işə gəlmələri ilə bağlı qeydiyyatdan keçmələrinə baxmayaraq həmin gün üçün xəstəlik haqqında arayış təqdim ediblər.

Sonra HİK-in büro üzvü Firdovsi Məmmədov "Tədris Stomatoloji Klinikanın direktoru, dosent Alqış Səfərovun rektora ünvanladığı 8 fevral 2017-ci il tarixli təqdimatına əsasən HİK tərəfindən aparılmış araşdırmanın nəticəsi haqqında" məruzə ilə çıxış edib. O da klinikada işləyən əməkdaşların işə davamiyyəti, əmək və nizam-intizam qaydalarının pozulması, eləcə də bir sıra digər çatışmazlıqlarla bağlı ətraflı məlumat verib. Əmək intizamını pozan işçilərin qanunun tələblərinə müvafiq cəzalandırılmasını təklif edib.

Adları işə gəlməyənlərin siyahısında olan əməkdaşların fikirləri də dinlənilib, müzakirələr aparılıb.

Gündəlikdə duran məsələlərlə bağlı çıxış edən digər komitə üzvləri də öz çıxışlarında bu cür yoxlamaların nizam-intizamı möhkəmləndirmək baxımından əhəmiyyətini xüsusi vurğulayıblar. Humanizm prinsiplərini əsas götürərək ilk yoxlamanın nəticələrinə görə əməkdaşlara verilən cəzanın yüngülləşdirilməsini təklif ediblər.

Klinikanın direktoru, dosent Alqış Səfərov əməkdaşların işə davamiyyətinə nəzarət etmək məqsədilə ötən ilin oktyabrından etibarən elektron qeydiyyatın tətbiq edildiyini bildirib. Son 4 ay ərzində nizam-intizamın daha da möhkəmləndiyini, bu istiqamətdə davamlılığı qoruyub saxlamaq üçün lazımi tədbirlərin görüləcəyini diqqətə çatdırıb.

Cahangir Qasımov bu məsələnin rektorun nəzarətində olduğunu bildirərək yoxlamaların bundan sonra da müntəzəm olaraq aparılacağını, heç kəsə güzəşt edilməyəcəyini deyib.

Sonda çıxışları və təklifləri, həmçinin nizam-intizamı pozan əməkdaşların izahat və etiraflarını nəzərə alan Həmkarlar İttifaqı Komitəsinin üzvləri əmək məcəlləsinin 186-cı maddəsinin 3-cü bəndini pozan əməkdaşlara yazılı xəbərdarlıq elan olunmasına razılıq verməklə kifayətləniblər. İşburaxan əməkdaşlarla bağlı baş mühasibatlığa məlumat veriləcəyi qeyd edilib.

İntizam qaydalarını pozanların bundan sonra daha sərt şəkildə cəzalandırılacaqları diqqətə çatdırılıb.

# Türkiyəli professorlarla orqan köçürülməsi mövzusunda müzakirələr aparıldı

- **Fevralın 17-də Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında "III orqan transplantasiyası günləri" çərçivəsində elmi konfrans baş tutub. Tədbirdə klinikanın direktoru, professor Surxay Hadıyev açılış nitqi ilə çıxış edərək konfrans zamanı transplantologiya mövzusunda geniş məruzələrin səslənəcəyini, bu sahədə aktual məsələlərlə bağlı müzakirələrin aparılacağını bildirdi.**



S.Hadıyev ATU-da orqan köçürülməsi ilə bağlı türkiyəli həmkarlarla birgə tədbirlərin təşkilinin artıq ənənə halını aldığını qeyd etdi: "Bildiyiniz kimi Azərbaycan müstəqillik qazandığı dövrdən etibarən Türkiyə ilə bütün sahələrdə əlaqələri genişləndirib. Bu sahələrə səhiyyə də daxildir. Mütəmadi olaraq həkimlərimiz, səhiyyə işçilərimiz qarşılıqlı səfərlər edir, birgə beynəlxalq konfranslarda iştirak edirlər. Bu baxımdan, Tibb Universitetinin Türkiyənin bir sıra elmi təhsil müəssisələri, o cümlədən İnönü Universiteti ilə möhkəm əməkdaşlığı var".



Türkiyənin Qaraciyər Transplantologiyası İnstitutunun müdiri, İnönü Universitetinin professoru Sezai Yılmaz da tədbirin təşkilinə görə ATU rəhbərliyinə təşəkkür edərək hazırda dünyada orqan köçürülməsinin səhiyyənin mühüm bir hissəsini əhatə etdiyini bildirdi. Bu sahənin son illər Azərbaycanda da inkişaf etdiyini vurğulayan S.Yılmaz bu məsələdə azərbaycanlı həkimlərlə təcrübə mübadiləsi aparmağın böyük əhəmiyyət daşıdığını qeyd etdi.

Konfransda azərbaycanlı və türkiyəli səhiyyə nümayəndələri, tibb elminin təmsilçilərinin orqan transplantologiyası üzrə müxtəlif mövzularda mühazirələri səsləndi. "Marginal donorlarda maşın reperfuziyası", "Fərdi immunosupressiya", "Qaraciyər transplantasiyası sonrası rəddetmənin biomarkerləri", "Qan qrupu uyğunsuzluqarında desensibilizasiya" və bu kimi digər mövzularda məruzələr dinlənildi. Hepatit C zamanı qaraciyər köçürülməsi, böyrək transplantasiyasında Azərbaycan təcrübəsi ilə bağlı ölkənin aparıcı elmi tibb müəssisə və klinikalarının əməkdaşları çıxış etdilər.

# Azərbaycan Tibb Universiteti ilə Türkiyənin Medicabil xəstəxanası arasında memorandum imzalanıb

- **Azərbaycan Tibb Universiteti (ATU) ilə Türkiyənin Bursa şəhərindəki Medicabil xəstəxanası arasında memorandum imzalanıb.**

Bu məqsədlə Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının baş həkimi, professor Rauf Ağayev və tibbi koordinasiya şöbəsinin həkimi Aygün Abdullayeva Türkiyənin Medicabil xəstəxanasında olublar. ATU-nun rektoru, professor Gəray Gəraybəylinin göstərişi ilə baş tutan səfər qarşılıqlı əməkdaşlığın inkişafı məqsədi ilə keçirilib. Səfər zamanı nümayəndə heyəti xəstəxananın professorları ilə görüşüb, təmsil etdikləri tibb müəssisəsi barədə geniş məlumat veriblər.



Sonra iki tibb ocağı arasında memorandum imzalanıb, idarəetmə məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb. Memorandumun əsas məqsədi akademik mübadilə və əməkdaşlığın genişləndirilməsidir. Görüş zamanı tibb sahələrində birgə elmi tədqiqatlar, simpozium və konfransların keçirilməsi, təcrübə mübadiləsi imkanları müzakirə olunub.

# ATU həkimləri İranlı cərrahın xəstənin qarnında unutduğu cismi çıxardılar

- **Bu günlərdə ATU-nun Tədris Cərrahiyyə Klinikasında daha bir uğurlu əməliyyat icra olunub. Yeddi ay əvvəl Tacikistanın paytaxtı Düşənbə şəhərində iranlı cərrah tərəfindən böyrək köçürdülən xəstənin halı pisləşib.**



Tədris Cərrahiyyə Klinikasına müraciət edən xəstənin yarası sağalmır və irinləyirmiş. Digər tərəfdən, bu vətəndaşa həm də şəkərli diabetə tutulduğunu deyiblərmiş.

Müayinə nəticəsində xəstəyə düzgün diaqnoz qoyulmadığı aydınlaşıb. Kompyuter tomoqrafiyası zamanı dosent Rasim Bayramov xəstənin qarnında irinlik və yaddan çıxmış yad cisim aşkarlayıb. Və xəstə dərhal professor Mübariz Əliyev tərəfindən əməliyyata alınıb. Yüksək səviyyədə keçən əməliyyat uğurlu olub. Hazırda xəstənin vəziyyəti stabilləşib.

# Professor Surxay Hadıyev: Cərrah öncə xəstənin etimadını qazanmalıdır



**Cərrahiyyə bir sənət olmaqla yanaşı, həm də bir elmdir. Cərrahlığı özünə peşə seçmək istəyən hər bir şəxs öncə insanı sevməli, xəstə arxasında, ilk növbədə, insanı görməli və münasibətini onun üzərində qurmalıdır. Sirr deyil ki, cərrahlıq sənətini seçənlərin böyük bir əksəriyyəti bu işin maddi tərəfini düşünür. Təəssüflə qeyd etməliyəm ki, bəzən bu, xəstəyə münasibətdə əsas götürülür. Yaxşı cərrah olmaq üçün öz sənətinin kamil mütəxəssisi olmaqla yanaşı, daima inkişaf etmək, dünya təcrübəsindən faydalanmaq da vacibdir. Ən başlıcası isə həkim öncə xəstənin etimadını qazanmalıdır.**

Bu sözləri AZƏRTAC-a məxsusi müsahibəsində Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının direktoru, professor Surxay Hadıyev bildirib.

Professor deyib: “Tədris Cərrahiyyə Klinikası Tibb Universiteti üçün ayrılmış xüsusi klinikadır. Əvvəllər Tibb Universitetinin tələbələrinin tədrisi müxtəlif xəstəxanalarda keçilirdi. Artıq dörd ilə yaxındır ki, klinika fəaliyyət göstərir. Bu tibb ocağında universitetin bütün cərrahi kafedraları bir yerdə toplanıb, tələbələr üçüncü kursdan etibarən burada cərrahiyyənin müxtəlif sahələrində təhsil alırlar. Bundan əlavə klinikada respublikanın cərrahiyyənin müxtəlif sahələrində püxtələşmiş bir çox peşəkar həkim və mütəxəssisləri cəmlənib. Klinika ən müasir diaqnostik və müalicəvi avadanlıqla təchiz olunub.

Mərkəzdə Bakı ilə yanaşı, respublikanın bütün bölgələrindən gələn vətəndaşlara da tibbi yardım göstərilir. Ötən ilin statistikasına əsasən klinikada 5771 cərrahi əməliyyat icra olunub. Gündəlik əməliyyatların sayı 20-30 arası dəyişir. Planlı əməliyyatlarda uğursuz nəticə çox azdır. Ümumiyyətlə, əməliyyatın uğursuzluğu yalnız həkimin fəaliyyətindən deyil, həm də xəstəliyin ağırlıq dərəcəsi və vaxtında mütəxəssisə müraciət etməsindən asılıdır. Təxirəsalınmaz əməliyyatların isə hər an gözlənilməz nəticələri ola bilər. Lakin buna da çox az rast gəlinir.

Kardioloji şöbəyə daha çox müraciət daxil olur. Demək olar, hər gün ürək əməliyyatları aparılır. Buna aorta koronar şuntlama və digər müxtəlif ürək qüsurlarının aradan qaldırılması aiddir.

Klinikamızda müasir əməliyyatlar da aparılır. Bunlardan ən çox uşaqlar arasında yayğın olan koxlear implantasiya əməliyyatını misal çəkmək olar.

Ümumiyyətlə, cərrahiyyənin elə bir sahəsi yoxdur ki, ora gündəlik müraciətlər olmasın. Statistikaya əsasən son zamanlar ürək-damar və neyrocərrahiyyə şöbəsinə daha çox xəstə gəlir. Səbəb olaraq isə onu deyə bilərəm ki, bu sahəyə aid səhhət pozuntuları digər illərə nisbətən daha çox yayılıb, əhalinin bu istiqamətdə fəaliyyət göstərən mütəxəssislərimizin səriştəsi və müvəffəqiyyətinə inamı artıb. Əvvəllər tez-tez rast gəlinən cərrahi xəstəliklərin sayı isə nisbətən azalıb. Bunlara yırtıqlar, kəskin apendisit kimi bir sıra qarın əməliyyatları aiddir.

Plastik cərrahiyyəyə gəldikdə isə klinikamızda müxtəlif istiqamətdə əməliyyatlar aparılır. Hazırda burun əməliyyatları üstünlük təşkil edir. Bu əməliyyatların demək olar ki, 90 faizindən çoxu qadınlar üzərində aparılıb. Plastik əməliyyatların arasından bir əməliyyatı xüsusi qeyd etmək istərdim. Bu üzün formasının dəyişdirilməsi idi. Xəstəmizdə anadangəlmə qüsur nəticəsində üz sümükləri tez birləşib. Bu səbəbdən beyin inkişaf edib genişlənə bilməmiş və bunun nəticəsində gözlər önə çıxaraq deformasiyaya uğramışdı. Əməliyyat zamanı xəstənin beyin qapağı açılıb, üzün köndələn sümükləri kəsilərək qabağa çəkilib. Hazırda xüsusi qurğu vasitəsilə üz tədricən öz düzgün formasını alır. Bu tip əməliyyatlar adətən uşaq yaşlarında aparılsa da, klinikamıza müraciət edən xəstə 24 yaşındadır. Əməliyyat klinikanın üz-çənə cərrahiyyəsi kafedrasının müdiri, tanınmış mütəxəssis, professor Çingiz Rəhimov tərəfindən aparılıb. Mənim fikrimcə, bu son illər Azərbaycanda keçirilən ən mürəkkəb plastik əməliyyatdır. Onu da qeyd edim ki, bu dünyada nadir hallarda görülən əməliyyatlardan biridir. Digər plastik əməliyyatlara gəldikdə isə bunların arasında ən geniş yayılmışları burun, qarın gərmə, mədə kiçiltmə əməliyyatlarıdır.

Xəstəliklər barəsində isə onu demək istərdim ki, hansısa bir xəstəliyin say etibarilə qabarıq formada artdığı müşahidə edilmir”.

# Beynəlxalq proqramların və layihələrin hazırlanması ilə əlaqədar işgüzar görüş

**Azərbaycan Tibb Universiteti ölkəmizdə tibb sahəsində təhsil verən ali təhsil müəssisəsi olmaqla yanaşı daim yeni (yerli və beynəlxalq) təşkilatlarla əməkdaşlıq edib təhsilin keyfiyyətinin artırılması, həmçinin beynəlxalq proqram və layihələrdə aktiv iştirak etmək istiqamətində işlər aparır.**



Bunlara misal olaraq fevralın 23-də universitetin Erasmus Mundus proqramının koordinatoru, dosent Rəhimə Qabulovanın təşəbbüsü, Əmək gigiyenası və uşaq-yeniyetmələr gigiyenası kafedrasının müdiri, dosent Şəhla Balayevanın təşkilatçılığı ilə Azərbaycan Memarlıq və İnşaat Universitetinin Beynəlxalq Proqramlar və Layihələr Sektorunun müdiri, həmçinin “Memarlıq, İnşaat və Dizayn” İctimai Birliyinin İcraçı direktoru Arif Nəcimov birgə beynəlxalq (Erasmus+, HORİZON 2020 və digər) layihələrin işlənib hazırlanması və strateji əməkdaşlığın qurulması məqsədilə universitetə dəvət olunmuşdur. Görüşdə əsasən, hər iki universitetin ortaq milli və beynəlxalq (Erasmus+, HORİZON 2020 və digər) layihələrinin işlənib hazırlanması müzakirə olundu. Eyni zamanda “Ətraf mühitin qorunması və gigiyenası”, “Sənaye müəssisələrinin istehsal-texnoloji proseslərinin ekologiyası”, “Əməyin mühafizəsi və gigiyenası”, “İnşaatda peşə travmaları və əmək gigiyenası”, “İstehsalatda istifadə edilən inşaat materiallarının düzgün istifadəsi və gigiyenası”, “Xidmət sahələrində əməyin mühafizəsi və gigiyenası”, “Ekoloji təmiz (yaşıl) binaların gigiyenası və insan sağlamlığının mühafizəsi”, “Uşaq və yeniyetmə müəssisələrinin tikintisi və istismarında ekoloji sağlamlıq”, “İlkin, orta və ali peşə təhsili müəssisələrinin tikintisi və istismarında ekoloji sağlamlıq”, “Müxtəlif peşələr üzrə sağlam qidalanma” və bir çox digər aktual problemlərin milli və beynəlxalq layihələr çərçivəsində həlli yolları və istiqamətləri müzakirə edilmişdir.

Müzakirələr zamanı həmçinin “Memarlıq, İnşaat və Dizayn” İctimai Birliyi ilə əməkdaşlıq və Azərbaycan Tibb Universitetinin Əmək gigiyenası və uşaq-yeniyetmələr gigiyenası kafedrası ilə birgə fəaliyyət imkanları nəzərdən keçirilmiş, hətta təşkilatın nəzdində “Ətraf mühit və əməyin mühafizəsi” şöbəsinin qurulması ideyası təklif olunmuşdur.

Görüş məhsuldar müzakirələr və hər iki universitetin birlikdə hazırlaya biləcəyi milli və beynəlxalq layihələrin istiqamətlərinin müəyyən edilməsi ilə yekunlaşdı.

Sözügedən görüşdə universitetin ümumi gigiyena və ekologiya kafedrasının müdiri, professor Mirzə Kazımov, qidalanma və kommunal gigiyena kafedrasının müdiri, dosent İbrahim Əhmədov, Əmək gigiyenası və uşaq-yeniyetmələr gigiyenası kafedrasının əməkdaşları professor Rüxsarə Əliyeva, dosent Minayə Nəbiyeva, dosent Səyyad Gürzəliyev və dosent Cəmilə Salehova da iştirak edirdilər.

**Səyyad Gürzəliyev,**
*Əmək gigiyenası və uşaq-yeniyetmələr gigiyenası kafedrasının dosenti*

# Xarici tələbələrlə görüş keçirilib

**Azərbaycan Tibb Universitetində I müalicə-profilaktika fakültəsində təhsil alan xarici tələbələrlə görüş keçirilib.**





Tədbiri universitetin xarici tələbələr üzrə dekanı, dosent Tariyel İsmayılov açıb. Dekan tələbələrin tədris, təcrübə zamanı müəllimlərin onlara olan münasibəti ilə maraqlanıb. Bildirib ki, tələbələrə müəllimlər tərəfindən qayğının artırılması, normal münasibətin göstərilməsi məsələsi birbaşa rektorun diqqət mərkəzindədir. Hansısa müəllimin tələbəyə qarşı ögey münasibəti və ya haqsız mövqe sərgiləməsi ilə bağlı edilmiş şikayətin rektorluq səviyyəsində həll olunacağını tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Ediləcək şikayətlərin anonim saxlanılacağını da vurğulayan T.İsmayılov eyni zamanda tələbələrin yataqxana şəraitində və ölkədə müvəqqəti yaşayışı üçün süni əngəllərin olub-olmaması ilə də maraqlanıb, onları universitetin daxili nizamnaməsinə riayət etməyə səsləyib. Bildirib ki, daxili nizamnaməni pozduqlarına görə 8 tələbə yataqxanadan azad olunub.

Dekan müavini Orxan İsayev də tələbələrə bir sıra tövsiyələrini verərək, müqavilə üzrə təhsil haqqını ödəməyən tələbələrin çox qısa zamanı qaldığını bildirib. Aprelin 1-dək təhsil haqqını ödəyə bilməyənlərin universitetdən xaric olunacaqlarını deyib.

Tədbirdə çıxış edən dekan müavinləri Orxan İsayev və Nigar Ələkbərova tələbələrin hər hansı problemlə üzləşdikləri təqdirdə onlara müraciət etmələrini tövsiyə ediblər.

Sonda tələbələr bir sıra təkliflərlə çıxış edərək problemlərini dilə gətiriblər. Onları maraqlandıran suallara ətraflı cavab verilib. Qeyd edək ki, bu görüşlər silsilə şəklində olaraq bütün fakültələr üzrə keçiriləcək.

**Qabil ABDULLAYEV**

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR

**Kafedraların dosentləri:**
- Tibbi biologiya və genetika kafedrası -1 yer (0,75 vahid)
- I mamalıq və ginekologiya kafedrası -1 yer
- II daxili xəstəliklər kafedrası -2 yer
- İnsan anatomiyası kafedrası -1 yer
- Klinik farmakologiya kafedrası -1 yer (0,5 vahid)
- Neyrocərrahlıq kafedrası -1 yer
- Uşaq cərrahlığı kafedrası - 1 yer (0,5 vahid)
- Ümumi cərrahlıq və anesteziologiya kafedrası -1 yer (0,5 vahid)
- Psixiatriya kafedrası -1 yer
- Yoluxucu xəstəliklər kafedrası -1 yer
- Əmək gigiyenası və uşaq yeniyetmələr gigiyenası -1 yer

**Kafedraların assistentləri:**
- I mamalıq və ginekologiya kafedrası -1 yer (0,5 vahid)
- I mamalıq və ginekologiya kafedrası -1 yer (0,75 vahid)
- II daxili xəstəliklər kafedrası -1 yer
- Məhkəmə təbabəti kafedrası -1 yer (0,5 vahid)
- Terapevtik pediatrik propedevtika kafedrası -1 yer (0,75 vahid)
- Neyrocərrahlıq kafedrası -1 yer
- Uşaq cərrahlığı kafedrası -1 yer (0,75 vahid)
- Urologiya kafedrası -1 yer
- III daxili xəstəliklər kafedrası -1 yer
- Psixiatriya kafedrası -1 yer
- Ailə təbabəti kafedrası -2 yer
- III uşaq xəstəlikləri kafedrası -1 yer (0,5 vahid)
- IV daxili xəstəliklər kafedrası -1 yer (0,5 vahid)
- Ortopedik stomatologiya kafedrası -1 yer (0,5 vahid)
- Terapevtik stomatologiya kafedrası -2 yer (0,5 vahid)
- Terapevtik stomatologiya kafedrası -1 yer (0,75 vahid)

**Kafedraların baş müəllimləri:**
- Bioloji kimya kafedrası -1 yer
- Operativ cərrahlıq və topoqrafik anatomiya kafedrası -1 yer
- Əczaçılıq kimyası kafedrası -1 yer

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

**AZ 1007, Bakı şəhəri , Ənvər Qasımzadə küçəsi 14:**
**Telefon: (012) 597-43-23**

### Etibarsız sayılır

I müalicə-profilaktika fakültəsinin VI kurs, 140[b] qrup tələbəsi Şükürov Qardaşxan Məmmədxan oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

ATU-nun hazırlıq şöbəsi tərəfindən Ahmed Taha Joorinin adına verilmiş ingilis dili üzrə dinləyici bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin VI kurs, 142[b] qrup tələbəsi Məmmədov Rza Şahin oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin II kurs, 4[a] qrup tələbəsi Təhməzli Nigar Oqtay qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stimatologiya fakültəsinin II kurs, 715[a] qrup tələbəsi Parvaresh Mohammadamın Mohammadreza oğlunun adına Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi itdiyi üçün etibarsız hesab edilir.

II müalicə-profilaktika fakültəsinin V kurs, 309[b] qrup tələbəsi Kərimova Sevinc Cəlaləddin qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin I kurs, 170[a] qrup tələbəsi Quliyeva Asiman Haxverdi qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin V kurs, 110[a] qrup tələbəsi Mirzəyeva Nərminə Tahir qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

ATU-nun hazırlıq şöbəsi tərəfindən Güzdə Nuran Payamoğlunun adına verilmiş Azərbaycan dili üzrə dinləyici bileti itdiyi üçün etibarsız sayılır.

**Eldar İSMAYIL**

## XOCALININ DƏRDİ HARAY...

Ulu tanrı, hardan gəldi bəd xəbər?
Bəd xəbərə ürək dözsün nə qədər?
İç dünyamdan bir ah qopdu bu səhər,
Xocalının dərdi haray, ay haray!

Bu milləti qırdıran kim, qıran kim?
İgidləri kürəyindən vuran kim?
Bilinmirsə kim müttəhim, kim hakim...
Xocalının dərdi haray, ay haray!

Dağı-daşı sac içində qovruldu,
Böyük-kiçik tank altında qırıldı.
Xocalının külü göyə sovruldu...
Xocalının dərdi haray, ay haray!

Nə qocası, nə cavanı seçildi,
Qadınların qızıl qanı içildi.
Körpələri xəzəl kimi biçildi,
Xocalının dərdi haray, ay haray!

Bədən getdi, qol dorğandı, baş dindi,
Göz ovuldu, göy ağladı, yaş dindi.
Torpaq yandı, yurd dağıldı, daş dindi...
Xocalının dərdi haray, ay haray!

Zülmü görüb zaman təzdən qocaldı,
Xatın kəndi bu vəhşətə mat qaldı.
Öz dərdini unudaraq ün saldı-
Xocalının dərdi haray, ay haray!

Aman Allah, tufana bax, tufana,
Şəhər zülmət, toz qarışıb dumana...
Saçın yolub dad eləyir hər ana,
Xocalının dərdi haray, ay haray!

Belə sərgi sərməmişdi bu dünya,
Belə dövran sürməmişdi bu dünya,
Belə qırğın görməmişdi bu dünya!
Xocalının dərdi haray, ay haray!

Qayasına mən başımı qoyaram,
Torpağını al qanımla boyaram.
Dünya boyu sızıldayar bu yaram...
Xocalının dərdi haray, ay haray!

Xocalının dərdi bizə qalx! -deyir.
Düşmənləri süngüsünə tax! -deyir.
Qılıncını nərə çəkib çax! -deyir.
Xocalının dərdi haray, ay haray!

Bu harayda Allah eşqi olmalı!
Axan qanlar qan yaddaşı qalmalı!
Bu qisası əzəl-axır almalı!
Xocalının dərdi haray, ay haray!
İnsanların mərdi haray, ay haray!

**1992**




**Gülarə QARAYEVA**
*Əsaslı Kitabxananın şöbə müdiri*

## XOCALIM

Bəmbəyaz rəngdəydi o gün dağ, dərə,
Hər yan bürünmüşdü ağ bir örpəyə.
Şaxta hökm edirdi o gün hər yerə,
Duymuşdu təbiət...axacaq qanlar.

O zülmət gecənin lal sükutunu
Aşılan topların sədası pozdu.
Bürüdü hər yeri dəhşət alovu,
Ucaldı göylərə nalələr, ahlar.

İsti yatağında yatan körpələr,
Xəyallar, arzular quran gəlinlər,
Elin gözəlləri, ipək nənələr
Bələndi al qana, ucaldı ahlar.

Düşmən susamışdı türkün qanına,
O aman verməndi qıza, qadına.
Çiçək balalara, ağsaqqallara,
Bəmbəyaz ağ örtük batdı qanlara.

Qalmaz qiyamətə, qalmaz haqq-hesab,
Düşmən bu dəhşətə verəcək cavab!
Qana-qan söyləyib, qəhrəman babam,
"İntiqam"-deyərək, çağırır ruhlar!

Silahsız, köməksiz qalan Xocalım,
Sona tək döyüşən igid Xocalım.
Hər daşı, hər evi Şəhid Xocalım,
Qalarmı heç yerdə günahsız qanlar?!

Ey qorxaq nəvəsi satqın Sumbatın,
Bu qanlı yollardan gəl əl çək, sakın!
İgid nəvəsiyəm Babək babamın,
Yerdə qalmayacaq tökdüyün qanlar!

**Oktay Kazım**
*II müalicə-profilaktika fakültəsinin VI kurs, 341[a] qrup tələbəsi*

## XOCALININ QATİLLƏRİNƏ

Məhv etmək istədiniz
Arvad-uşaq, qocalı.
Tarixin utanc günü-
Tapdalanmış Xocalı.

Bir xalqın ürəyində
Böyük yara açdınız.
Bir şəhəri məhv edib
İnsanlıqdan qaçdınız.

Gizlədib gerçəkləri
Olanları dandınız.
Etdiyiniz əməli,
Vəhşiliyi qandınız?!

Bir gün hər kəs duyacaq
Həqiqətin ününü.
Əvvəl-axır görəcək
Dünya qisas gününü.

Xankəndi məzar deyil,
Gözəl diyar olacaq.
Xocalı bir qəhrəman
Şəhər kimi qalacaq.

# Xocalıya ədalət

### Allah rəhmət eləsin!

Normal fiziologiya kafedrasının əməkdaşları kafedranın baş laborantı Elmira Babayevaya anası **Gülü xanımın** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

I cərrahi xəstəliklər kafedrasının əməkdaşları kafedranın dosenti Solmaz İmanovaya anası **Şamaxı xanımın** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98[c]
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 1800